**“Azadlıq”.-**2011.-2 fevral.-N 24.-S.13.

# Azərbaycanın pul dövriyyəsi tarixi

## Qədim dövlətlərimizdəki pullar

**Arxeoloji tətqiqatlar nəticəsində, dəfinə və tək şəkildə aşkar edilmiş numizmatik materialların analizi Azərbaycan ərazisində pul dövriyyəsinin e.ə. VII-VI əsrlərdə meydana çıxmasını təsdiq edir. Y. A. Paxomovun fikrincə, Albaniya ərazisində pul dövriyyəsi e.ə. III əsrin əvvəllərində meydana çıxmışdır. Burada dövr edən pullar Makedoniyalı İskəndərin adından Suriya, Mesopotamiya və Kiçik Asiyada zərb edilmiş gümüş draxma və tetradraxmalar olmuşdur. E.ə. III əsrin sonu - II əsrin əvvəllərində Albaniyada pul-əmtəə münasibətlərinin inkişafı ilə əlaqədar olaraq sikkələrə tələbat artdığından yerli zərbxanalar fəaliyyətə başlamışdır. Yerli zərbxanalarda Makedoniyalı İskəndərin sikkələrinə oxşar çümüş sikkələr zərb edilmişdir. Bu sikkələr bədii baxımdan zəif tərtib edilmiş, sikkənin üzərində Makedoniyalı İskəndərin portreti, arxa tərəfində isə Zevsin kobud təsviri verilmişdir.**

Sonrakı dövrlərdə Albaniyanın pul dövriyyəsində Selevki, Frakiya, Viflniya, Pont, Baktriya, Afina sikkələrindən də istifadə edilmişdir. E.ə. II əsrdən başlayaraq Albaniya ərazisinə pont, arşaki və roma sikkələri də daxil olmağa başlamışdır. 1897-ci ildə Gülüstanda, 1925-1929-cu illərdə Bərdədə, 1933-cü ildə Ordubadda, 1958-ci ildə Xınıslıda, 1964-cü ildə Zəngilanda, 1966-cı ildə Qəbələdə antik dövrə aid gümüş pul dəfinələrinin aşkar edilməsi Albaniyada pul-maliyyə münasibətlərinin yüksək inkişafından xəbər verir.

Azərbaycan VII əsrdə ərəb istilasına məruz qaldıqdan sonra Xilafətin pul dövriyyəsinə qatılır. IX-XI əsr Azərbaycan Feodal dövlətlərində, O cümlədən Şirvanşahlar - Məzghidlər, Sacilər, Salarilər, Rəvvadilər, Şəddadilər dövlətlərinin sikkələri, xüsusən də gümüş dirhəmlər nəinki Azərbaycanın daxili bazarının tələbatını ödəyir, hətta Qafqazda Xilafət sikkələri ilə yanaşı bir növ beynəlxalq pul vahidi rolunu da oynayırdı. XV-XVI əsrlərdə Şirvanşah sikkələri - tənqələr bütün Qafqazda ödəniş vasitəsi hesab edilirdi. Ölkənin cənubunda isə bir-birinin ardınca türkdilli sülalələr Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər dövləti meydana çıxırdı. Həmin dövlətlər gümüş və qızıl sikkələr kəsirdi. XVI əsrin əvvəlində Səfəvilər dövlətində buraxılan 9,4 qramlıq ağır gümüş sikkələr müəyyən mənada həmin dövlətin iqtisadi gücünə dəlalət edirdi. Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinə görə Azərbaycanın şimal hissəsi Rusiyanın tərkibinə keçdikdən sonra xanlıqlara sikkə kəsməyə qadağa qoyuldu. Azərbaycan ümumrusiya pul dövriyyəsinə daxil edildi.

Azərbaycan ərazisində arxeoloji axtarışlar zamanı aşkar edilən müxtəlif dövrlərə aid pul nümunələri bu gün tarixi irsimiz kimi qorunur.

### İlk milli valyutamız

Müsəlman dünyasında ilk demokratik dövlət olan Azərbaycan Cümhuriyyətinin - Azərbaycan Demokratik Respublikasının ilk müstəqil pul emissiyası 1919-cu ilin əvvəlində tədavülə buraxılan 25, 50, 100 və 250 manatlıq əskinaslarla başlayır. Əskinasın üz tərəfində Cümhuriyyət, arxa tərəfində isə rus dilində "Azərbaydjanskaya Respublika" ifadələri, əskinasın nominal dəyəri və buraxıldığı tarix göstərilmişdir.

1919-1920-ci illərdə buraxılmış pul vahidlərinin adları Azərbaycan dilində manatla, rus dilində isə rubl ilə verilmişdir. Burada əsas məqsəd uzun illər işlədilən və hələ də dövriyyədə qalan Rusiya pul nişanlarına öyrəşən əhalinin tədricən yeni milli pul vahidinə inamının artırılması idi. Eyni zamanda, Azərbaycan Cümhuriyyətinin bu sahədəki iqtisadi siyasəti milli valyuta - manatın beynəlxalq miqyasda tanınması ilə bağlı olmuşdur. Məhz buna görə də Fransa hökumətinin dəstəyini hiss edərək (qismən də fransız dilinin beynəlxalq dil olduğunu nəzərə alaraq), Cümhuriyyət 500 manatlıq əskinasların üzərində Respublikanın və nominalın adlarını fransız dilində də verməyi lazım bilmişdi.

### Sovet dövründəki pul nişanları

Azərbaycanda ikinci pul emissiyası 1920-ci ildə Azərbaycan Sovet Sosialist Respublikasının (ASSR) adından dövriyyəyə buraxılmışdır. Bu emissiya çərçivəsində birinci əskinas - 1.000 rubl (böyük format- da), sonra isə 5 (2 variantda), 100 (2 variantda) və 1.000 (kiçik formatda) manatlıq, 1921-ci ildə isə yeni dizaynla dörd yeni nominal - 5.000, 10.000, 25.000 (2 variantda) və 50.000 manatlıq əskinaslar tədavülə buraxılmışdır.

1921-ci ildən başlayan iqtisadi böhran nəticəsində 1922-ci ildə 3 yeni əskinas - 100.000 (3 variantda), 250.000 (2 variantda) və 1.000.000 (2 variantda) manatlıq əskinaslar, 1923-cü ilin əvvəlində isə 5.000.000 manat nominallı pul nişanı dövriyyəyə buraxıldı.

ASSR-in 1920-23-cü illərdə həyata keçirdiyi emissiyanın əskinaslarının üzərində onların dəyəri Azərbaycan dilində manatla, rusca isə rublla göstərilmişdir. Bütün əskinaslarda dövlət atributlarının elementləri - "aypara və ulduz", "oraq və çəkic" təsvir edilmiş, üzərində buraxdığı tarix əks olunmuşdur.

1923-24-cü illər ərzində Azərbaycan ərazisində Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının (ZSFSR) 4 pul emissiyası olmuşdur. 1922-1923-cü illərdə Cənubi Qafqaz respublikalarında güclənən təsərrüfat böhranı və inflyasiya nəticəsində, 1924-cü ilin əvvəlində ZSFSR hökumətinin qərarı ilə tədavülə 25, 50, 75, 100, 250 milyon və 1 milyard rublluq əskinaslar buraxılmışdır.

Bu dövrdə ZSFSR-in pul təsərrüfatı dövriyyəyə dünya pul tədavülü tarixində yalnız bir dəfə 10 milyard nominallı əskinas buraxması ilə xarakterikdir.

ZSFSR pul vahidləri Azərbaycan, Gürcüstan və Ermənistanda dövriyyədə olmuşdur. Bu üç respublika arasında iqtisadi durum Azərbaycanda yüksək olduğundan Azərbaycan manatı - ZSFSR rublundan dəyərli idi.

Zaqafqaziya Federasiyasının bütün 4 emissiyasının əskinaslarının dizaynı eyni tərzdə yerinə yetirilmişdir. Belə ki, əskinasların üz tərəfində mərkəzdə Tiflisdə yerləşən ZSFSR-in Mərkəzi İcraiyyə Komitəsinin binası, arxa tərəfdə isə ulduz içərisində aypara, oraq və çəkic təsvirləri verilmişdir. Bütün əskinasların üzərində buraxıldığı tarix göstərilmişdir. 1 və 10 milyardlıq əskinasların arxa tərəfində qadın təsviri və onun yanında isə taxıl, meyvə və tərəvəz təsvirləri verilmişdir.

1923-cü ildə SSRİ Dövlət Bankı yaradıldı və onun Bakı filialı açıldı, bununla da Azərbaycanın bank sistemi Moskvadan idarə olunmağa başlandı. 1936-cı ildə SSRİ-nin qəbul edilmiş Konstitusiyasına əsasən Azərbaycan SSRİ-nin tərkibinə daxil oldu. SSRİ Dövlət Bankının Azərbaycan filialı 1991-ci ilədək fəaliyyət göstərdi və SSRİ məkanında vahid valyuta funksiyasını sovet rublu həyata keçirdi. SSRİ dövründə İttifaqa daxil olan digər respublikalar kimi Azərbaycanda da nağd pul dövriyyəsinin təşkili mərkəzləşdirilmiş qaydada həyata keçirilirdi.

1936-cı ildə qəbul edilmiş Konstitusiya aktına görə, Dövlət gerbində 11 respublikanın adının göstərilməsilə əlaqədar olaraq tədavülə buraxılan əskinaslarda dövlətin adı və pulun nominalı 11 dildə göstərilmişdir. Əskinaslar dövriyyədə 1947-ci il pul islahatlarına qədər qalmışdır.

Sovet dövründə 3 pul islahatı (1947, 1961, 1991) həyata keçirilmişdir. Sonuncu, 1991-ci ildə həyata keçirilən pul islahatı əhalinin yaddaşlarında "Pavlov islahatı" kimi qalmışdır. O vaxt 50 və 100 rublluq əskinaslar dövriyyədən üç gün müddətində çıxarıldı.

SSRİ dövründə ən üzunmüddətli tədavüldə olan pul nişanları 1961-ci il islahatlarından sonra dövriyyəyə buraxılan 1, 3, 5 rubl dəyərində SSRİ Dövlət Xəzinədarlıq biletləri və 10,25,50 və 100 rubl dəyərində SSRİ Dövlət Bankının biletləri olmuşdur.

Bununla yanaşı, 1961-ci ildə dövriyyəyə yeni dizaynla 1, 2, 3, 5, 10, 15, 20, 50 qəpik və 1 rubl dəyərində sikkələr buraxılmışdır.

**Müstəqilliyin ilk milli pul nişanları**

Azərbaycanın XX əsrin sonunda müstəqillik əldə etməsi suveren dövlətin mühüm atributlarından biri sayılan milli valyutanın dövriyyəyə buraxılmasını şərtləndirdi. Belə ki, ölkədə pul tədavülünün yaradılmasının və təşkil edilməsinin əsası, Azərbaycan Respublikası Prezidentinin 11 fevral 1992-ci il tarixli "Azərbaycan Respublikası Milli Bankının yaradılması haqqında" Fərmanı ilə Milli Bankın yaradılması və Azərbaycan Respublikası Prezidentinin 15 iyul 1992-ci il tarixli "Azərbaycan Respublikası milli valyutasının dövriyyəyə buraxılması haqqında" Fərmanına müvafiq olaraq milli valyutanın dövriyyəyə buraxılması ilə qoyulmuşdur.

Bununla əlaqədar olaraq, 1992-ci ilin avqustunda 1, 10 və 250 manatlıq əskinaslar, noyabrında 5, 10, 20 və 50 qəpiklik sikkələr, dekabrında 5 manatlıq əskinas, 1993-cü ilin martında isə 50, 100, 500 və 1000 manat nominallı kağız əskinaslar dövriyyəyə buraxıldı. Azərbaycan Respublikasının 1-ci pul emissiyası 1992-ci ildə Fransa Mərkəzi Bankı tərəfindən çap edilmişdir. Yeni dizaynla 1 və 10 manatlıq əskinaslar həmin şirkətdə istehsal olunmuşdur.

Milli Bank tərəfindən ölkədə nağd pul dövriyyəsinin nizamlanması, nağd pula olan tələbatın optimallaşdırılması məqsədilə 1994-cü ildə 10.000 manatlıq, 1996-cı ildə isə 50.000 manatlıq əskinaslar çap etdirilərək dövriyyəyə buraxıldı.

1994-cü ildə Almaniyada "Giesecke & Devrient" şirkəti tərəfindən istehsal edilən 10.000 manatlıq əskinasın üzərində "Şirvanşahlar" kompleksinin ümumi görünüşü, arxa tərəfində isə ənənəvi olaraq milli ornamentlə haşiyələnmiş çərçivədə həm rəqəmlə, həm də söz ilə nominal verilmişdir.

İngiltərənin "De La Rue" şirkəti tərəfindən çap

edilən 50.000 manat dəyərində əskinaslar 1996-cı ildən dövriyyəyə buraxılmış və bu pul vahidinin üzərində orijinal üslubda Naxçıvanda olan memarlıq abidəsi - "Mömünə Xatun türbəsi", arxa hissəsində isə ənənəvi olaraq milli ornamentlə haşiyələnmiş çərçivədə nominalın dəyəri həm rəqəmlə, həm də sözlə verilmişdir.

İngiltərədə 2001-ci ildə "De La Rue" şirkəti tərəfindən yeni dizaynla 1000 manat dəyərində əskinas buraxılmışdır. Bu əskinas Azərbaycanda neftin çıxarılması və istehsal edilməsinə həsr edilmişdir. Əskinasın dizaynında ənənəvi çərçivələr və ornamentlər istifadə edilmişdir.

**Yeni pul nişanlarının dövriyyəyə buraxılması**

Azərbaycan Respublikası Prezidenti tərəfindən 7 fevral 2005-ci il tarixdə "Azərbaycan Respublikasında pul nişanlarının nominal dəyərinin və qiymətlər miqyasının dəyişdirilməsi (denominasiyası) haqqında" Fərman

imzalanmışdır.

Fərmana uyğun olaraq, 2006-cı il yanvarın 1-dən etibarən yeni manata keçidlə əlaqədar 1 yeni manat AZN 5000 köhnə AZM-ə bərabər tutuldu. AZM və AZN-in birgə 1 il ərzində - 2006-cı ildə dövriyyədə oldu və yalnız 2007-ci il yanvarın 1-dən isə yeni manata tam keçid təmin edildi. Lakin AZM-lərin AZN-lərə dəyişdirilməsi prosesinə heç bir məhdudiyyət qoyulmadı və hazırda da bu proses xırda həcmdə olsa da davam etməkdədir.

Dövriyyəyə buraxılan yeni manat 1, 5, 10, 20, 50, 100 ekvivalentində olan əskinaslar və 1, 3, 5, 10, 20, 50 metal pul nişanlarından ibarət oldu.

Denominasiya prosesində tədavülə yeni nəsil pul nişanlarının buraxılmasının əsas məqsədi manatın nominal məzənnəsinin dünyanın aparıcı valyutalarının məzənnələrinə uyğun formalaşdırmaq, milli pul nişanları dizaynını, mühafizəsini, nominal strukturunu beynəlxalq standartlara uyğunlaşdırmaq, məzənnə və qiymətlər miqyasını optimallaşdırmaq, uçot və hesablaşma sistemini sadələşdirməkdən ibarət idi. Bununla yanaşı, yeni nəsil pul nişanlarına keçid pul nişanlarında milli və tarixçilik ənənələrinin daha qabarıq ifadə edilməsini, ölkədə pul dövriyyəsini yaxşılaşdırılmasını, o cümlədən nağd pulun istehsalı, daşınması, saxlanması və emalı ilə bağlı dövlət xərclərinə qənaət edilməsini təmin etdi.

Azərbaycanın yeni nəsil əskinas və sikkələrinin dizaynları vahid konsepsiya əsasında hazırlanmışdır. Yeni pulların dizayn mövzusu "Müstəqil Azərbaycan" müəyyən edilmişdir.

**"Azadlıq"ın Araşdırmaçı Jurnalistlər Qrupu**

**KİV-ə Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap edilir**